

# TÜRKAY

aylıq ədəbiyyat dərgisi

İyun 2024 il 2 say 18

## BU SAYIMIZDA

Nihâl Mirdoğan / Gerekir / 3
İnci Okumuş / Hasretin Yaktığı Yerde İstanbul / 4
Aygün Rəhimli Akbaba / Mən / 5
Halise Tekbaş / Hanı Çok Seviyordu / 6
Telli Pənahqızı/ Doğmalar, Yadlar / 7
Lütviyyə Əsgərzadə / Ülviyyə Həmzəyeva Sənətində Rənglərin Mozaikası / 8
Eluca Atali / Yad Dildə Azadlıq Nəğməsi / 13
Təranə Turan Rəhimli / Sən Mənim Şəklimi Çəkəbilməzsən / 14
Bənövşə Mahmudqızı / Yenə Kimdir Darıxan / 15
Banu Musayeva / Bölməyin / 16
Adilə Nəzər / Həyat Gözəldir / 17
Nüşabə Məmmədli / Müşgənbər Ətirli Ölüm / 18
Fatma Özger Bilgiç / Son Nefesteyim / 20
Esmira Günəş / Səbəbi Sənsin / 21
Vüsalə Vətənxan Mehri / Getdin / 22
Zərəngiz Dəmirçi Qayalı/ Mizan - Terazi / 23
Meryem Küçük / Mavisi Yasaklanmış Çocuk / 24

**T Ü R K A Y**
aylıq ədəbiyyat dərgisi
Baş Redaktor Lütviyyə Əsgərzadə
Məsul Katib Meryem Küçük
Üz Qabıqı Rəsmi İnci Məhərrəmli
E mail dergiturkay@gmail.com
İyun 2024 il 2 say 18

Samirə Sahib

# İmtahanım

Heç bilmədim necə oldu,
Gündüzlərim gecə oldu.
Dərdin sayı neçə oldu?
Nə ağırmış imtahanım?!

Həyat mənə qurdu tələ,
Xəyallarım getdi yelə.
Nədən bəxtim gəldi belə?
Nə ağırmış imtahanım?!

Bağım-bağçam xəzan oldu,
Gül-çiçəyim vaxtsız soldu.
Taleyimə zülmət doldu,
Nə ağırmış imtahanım?!

Dost dediyim nankor çıxdı,
Zalım fələk yaman yıxdı.
Qüssə-kədər məni sıxdı,
Nə ağırmış imtahanım?!

Şikayəti kimə yazım?-
Qışa döndü bahar, yazım.
Qəliz oldu alın yazım,
Nə ağırmış imtahanım

Qaranlıqlar sirdaşımdır,
Çarəsizlik qardaşımdır,
Tənhalığım yoldaşımdır,
Nə ağırmış imtahanım?!

Gileylənib çox ağladım,
Gənc ömrümə yas saxladım.
Arzulara daş bağladım,
Nə ağırmış imtahanım?!

Donub sanki, keçmir zaman...
İtdi ümid, itdi güman.
Şər gələrsə, verməz aman,
Nə ağırmış imtahanım?!

Yaşananlar bir hikmətdir,
Axirətə zəmanətdir.
Belə demək qəbahətdir-
Nə ağırmış imtahanım?!

Samirə, üz tut dərgaha,
Pənah apar tək Allaha.
Yetər, bəsdir, demə daha
Nə ağırmış imtahanım?

## Sevinc Azadlı

# Darıxır

Gördüyüm hər şey havayı, nəzərlərim gəzir səni,
Baxışna həsrət olan gözüm gözünçün darıxır.
Alışıbdır üzüm-gözüm, görməyəli nə zamandır,
Ay insafsız bilmirsən ki, üzüm üzünçün darıxır?

Asan deyil uzaq qalıb, kənar gəzib, gendə yanmaq,
Ötənləri, bitənləri  xatırlayıb, tez- tez anmaq.
Divardakı rəsmin ilə söhbət edib, gərçək sanmaq.
Sükut edib, lal dayanan sözüm sözünçün darıxır.

İntizardır sığalına mehr salan tellərim də,
Sənlə keçən günlərimə bu tamarzı  illərim də,
Sənsiz mənə qürbət olub  yurdum, yuvam, ellərim də,
Ağlımı başdan çıxaran, özüm özümçün darıxır.

Dəli şeytan deyir unut ədavəti, kinlərini,
Öyrət ona inandığın, tapındığın dinlərini,
Gəzdir onu xəyalında bu şəhərin  tinlərini,
De ki, zalım Allah haqqı izim izinçün darıxır.

İlahinin qismət adlı sınağından  keçə-keçə,
Su əvəzi eşqdə yanmış göz yaşımdan içə-içə,
Hədər yerə, bir inada buraxmışıq vaxtı heçə,
Sənsiz keçməyən bu zaman indi bizimçün darıxır.

Songül Özel

# Yürek Sızım

Oysa anlatacak
ne çok şey vardı gözlerimde
bakışlarıma sığmayan
zaman ve dil susmasaydı
gönlüm kıyıya vurmasaydı
ne bir kitaba sığardı susuşlarım
ne de yüreğimi yakarak geçen zamana
tek sığacak ve sığınacak
yeri vardı sözlerimin
sandıkta kilitli kalmış
o masum kalbin
lâkin açamayacaktı belki sözlerim
sırlarla dolu kilidini ama olsun
kendi kilidimi kırdım ya derdim
avunurdum belki
belki de geçerdi yürek sızım
kelimeler dile gelir
hâlini arz ederdi utanarak
harfler haddini aşıp
konardı gönlünün bam teline
sessizce haykırarak
dedim ya belki, belki de
geçerdi yürek sızım.

## Səlbi Baxış

# "Ay can" Deyənim

Yenə o yar məni məzəmmət edir,
Ay mənim, yalandan "ay can" deyənim.
Özü özlüyündə küsüb- inciyir,
Ay mənim, yalandan "ay can" deyənim.

Bilmir ki, ürəyim qübar eyləyir,
Həsrəti könlümü tar-mar eyləyir.
Hər kəsdən çəkinir, o, ar eyləyir,
Ay mənim, yalandan "ay can" deyənim.

Sənsiz ötən günüm bir ilə dönür,
Getdikcə ümüdün çırağı sönür.
Bivəfa həyatdı, vəfasız ömür.,
Ay mənim, yalandan "ay can" deyənim.

Könlümdə sızlayır kamanım, tarım,
Halımdan bixəbər dolaşır yarım.
Etibar, sədaqət dövlətim, varım,
Ay mənim, yalandan "ay can" deyənim.

Yazdığım naməni çatdırın yara,
Deyin, Səlbin düşüb, borana, qara.
Yetmədi sevgisi bir bəhrə-bara,
Ay mənim, yalandan "ay can" deyənim

## Ramilə Əliyeva

# Şəhid

Yenə payız fəsli gəldi yurduma,
Yenə xəzan oldu, töküldü yarpaq,
Əzəli-əbədi yurd yerimizdir,
Şəhid qanı ilə yoğrulan torpaq.

İndi qəm nidası düşüb köksümə
Səmadan bir həsrət qoxusu gəlir,
Vətən ana kimi basıb köksünə
Gör neçə şəhidin yuxusu gəlir.

Şəhidin məqamı ucadan uca
Nə desək bəlkə də azdı, şəhidlər.
Öz Vətən eşqiylə, Yurd sevgisiylə,
Şərəfli bir tarix yazdı, şəhidlər.

## Nəcibə İlkin

# Bütöv Azərbaycanam

Dünya boyda harayam, dünya boyda qoram mən,
Xırda-xırda doğranıb, sanmışam ki, varam mən.
İçimdəki ağrıdan parçalanmış hər daşım,
Gəl məni yaxşı dinlə, mənim əziz qardaşım.
Başı min cür bəlalı, gözü qan yaşlı canam,
Parça-parça olunmuş bütöv Azərbaycanam!

Min dəfə qəsd etdilər, min cürə bəsh etdilər,
Gözlərimi gözümdən çıxarıb həbs etdilər.
Ayaqlarım bir yanda, qollarım da bir yanda,
Məndən didərgin oldu, oğlum, qızım hayanda.
Mən Göyçəyəm, Dərbəndəm, o qanlı İrəvanam,
Zəngəzuram, Təbrizəm, bütöv Azərbaycanam!

Əl tutan əllərimi biləyimdən qırdılar,
Əyilməyən boynumu neçə min yol vurdular.
Qamarlayıb aldılar, o boyda Çin səddimi,
Fəqət, bunlar əymədi əyilməyən qəddimi.
Yad əllərlə yazılmış tarixəm, “Gülüstanam”,
Şəhid qanlı torpağam, bütöv Azrbaycanam!

Oğuz boylu Qorqudam, fəqət Turan elliyəm,
Əslim, nəslim türk olub, şahənşah türk dilliyəm.
Bayrağımın enməyən qürur, igid rəmziyəm,
Haqq-ədalət yolçusu, haqqın görən gözüyəm.
Millətimçün, xalqımçün, dilə düşən ad-sanam,
Hər yanda səsim, ünüm, bütöv Azərbaycanam.

Nizami, Füzuliyəm, Xəqani, Vaqifəm mən,
Şah İsmayıl Xətai, Hüseyin Cavidəm mən.
Hər an dara çəkilən, ərənlər ölkəsiyəm,
Otuz yeddinin ağlar qalan vətən səsiyəm.
Azadlığı uğrunda ürəyi dolu qanam,
Mən bölünə-bölünə, bütöv Azərbaycanam.

Güllələnmiş, odlanmış min əsir Qarabağam,
Laçın, Şuşa, Kəlbəcər, Füzuli adlı dağam.
Neçə dəfə soyqırım, Şamaxı, Bakı, Quba,
Yaddaşdan silinməyən, qanlı məzarlığım var.
Qan verən Xocalıyam, yaralı Ağdabanam,
Sünkgülərə keçilmiş bütöv Azərbaycanam.

Yetmiş il imperiyanın əsarəti altında,
İnildədi millllətim neçə min dərd qatında.
Nəhayət ki, qazandım müstəqillik adını,
20 yanvar ünvanlı qan yazdı muradımı.
Amma ki, sarsılmadım, qürur adlı cahanam.
Mən Odlar ölkəsiyəm, bütöv Azərbaycanam!

## Sevinc Həmzəyeva

# İstəmirəm Yerlə Səma Mənim Olsun

İstəmirəm yerlə səma mənim olsun
İstəyirəm yerin, göyün arasında
Sakit, rahat, dinc bir guşə
Və… sevgilim mənim olsun!..

Istəmirəm mavi dəniz mənim olsun
İstəyirəm dodaqlarım sudan ötrü
Yanıb külə dönməməkçün
Bir gilə su mənim olsun!

İstəmirəm sevinc içrə üzüm hər an
İstəyirəm kədərimin yarısıcan
Xoş anlarım, gülər günüm
Təbəssümüm mənim olsun!

Istəmirəm bir əbədi ömrüm olsun
İstəyirəm, nə qədər ki, yaşayıram
Öz sevgimi dəfn etməyim
Mənim sevgim mənim olsun!…

## Rana İslam Değirmenci

# Ben Hep 'Birbaşınalık'ı Sevdim

Ben hep bir başınalığı sevdim
Daha kalem tutmadan ellerim
Kardeşime mama yaptım gürül gürül yanan sobada
İşte o gün bu gündür ateşi iyi belledim
Gün geldi yanan elimin ateşini ben külledim

Ben hep bir başınalığı sevdim
Bütün ev, bütün mahalle, bütün sokak
Elbette ki şehir ve şehirler de uyurken
Uyanıktı hasretle can bulan gözlerim
Sessizliği delip geçen yürek sızımın arasında
Dirseklerim penceremin pervazında
Yanıp sönen yıldızların şarkısına
Ritim tuttu şu nemli kirpiklerim
Tek başına o tılsımlı geceleri dinledim

Ben hep bir başınalığı sevdim
Çelik çomak oynadım Munzur'un kenarında
Tıpkı benim gibi minik yürekleri elinde
Yaramaz Ecelerle, Fatihlerle bir
Ağaçtan evim, tahta kılıcım
ve yapraklardan sedirim oldu
O uçsuz bucaksız bahçelerde
Cesur Sultanlardan biriydim ben de
Hem de birbaşına bir Emir
Günü geldi korkusuzca bıraktım kendimi
derenin soğuk sularına birden bire
Yüzdüm, yüzdüm, yüzdüm ve yüzdüm
Geçmişten geleceğe

Ben hep birbaşınalığı sevdim
Nehir kenarındaki çakıllarda
Yolun yanı başındaki mucurlarda
O sarp dağlardaki keçi yolunda
Koştum yalın ayak asırlarca
Düştüm, binlerce yüzbinlerce kez
Ve düştüğüm gibi de kalktım yerimden
Her defasında bir 'El' tuttu ellerimden
Rüzgâr öptü gözlerimden
Yürek okşadı başımı ve dedi ki
'Kalk ayağa, ilham al sözlerimden…'

Düştüğüm gibi kalktım yerimden…
Ağlamadım! Her seferinde daha güçlü
Rüzgâr yalayıp geçti gözlerimi
Nehrin suyunda yıkadım kanayan dizlerimi
Hep bir gülümseyişe sardım düşlerimi
Tuttum sımsıkı 'O El'i…
Tuttum ve kalktım yerden
Hiç yalnız kalmadım, hiç yalnızlık çekmedim
'El Yüreği Tutunca'
Kalktım, doğruldum ve yürüdüm…

Yürüdüm, yürüdüm, yürüdüm ve yürüdüm
Yürüdüm bir başına…

Ben hep 'bir başınalık'ı sevdim
Kalabalıklar arasında bile…
Herkesin susup sindiği bir anda
avaz avaz şarkımı söyledim
O tek şiiri ben yazdım ve ekledim kitabıma
Mesela halayın başını çektim, en yakınlarımın düğünlerinde
Su taşıdım çok kez; eli öpülesi bir yaşlının
abdest alması için onun yüzyıllara şahit olmuş güğümünde
Bir hastayı, bir çocuğu dinledim, saatler süren o yolculukta
Güneşi seyrettim, levhaları okudum; yola bağlanan güçlü ufukta
Halı kilim dokudum, mendil işledim
Dantel dantel ördüm düşlerimi geceden sabaha dek
Umut oldum, çare oldum, deva oldum her yaştan yüreğe
O yürekler ki üşümesin tek

Ben hep 'birbaşınalık'ı sevdim
Ağlasam da ben ağladım; gülsem de ben
Düşsem de ben düştüm; kalksam da ben
Sevsem de ben sevdim yürekten; terk edip gitmek varsa
o cesur, yine ben
O anı okuyup dillendirmekse deva;
Munzur'dan çıkıp gelen Ece ben.

Ben terledim, onlarca kişinin arasında çoğu zaman; biliyorum
Çünkü ben terlemeyi seviyorum.

en terlerken gülüyorum…
Zaman denen o fırında pişen ekmek, ben…
Ben pişerken büyüyorum…
Ben yanıldım, ben kızdım, ben aldandım.
Korkma benden; binlerce kişinin tomarına eş,
mânâsız bir yük değilim
Gün gelince yanan yolumun ateşini ben küllerim
Kâh yazımla kâh sözümle yollarımı ben dillerim

Ben sadece bendim, ben olarak sevdandım.
Ben, yazısını okurken aynı demde yazısını yazandım.
Ben yazarken de yalnız kendimi yazdım.
‘Ben, ben…’ dediğime bakma;
Ben, ‘ben’ yolunda insanlık için yandım:
‘Kavrulsam da benim; savrulsam da ben
Sallansam da benim; yıkılsam da ben
Doğrulsam da benim; çakılsam da ben
Çözebilsem de ben; takılsam da ben’
Çünkü ben bunca fırtına arasında
omzundaki defteriyle yürüyen
Çünkü ben, o tılsımlı geceleri, gündüzleri düşleyen
Çünkü ben ‘El Yüreği Tutunca’
insanlıkta büyüyen

Ben hep ‘birbaşınalık’ı sevdim
Hiç incitmedim hiçbir zaman incitmeyeni
Gözüm gözünden tanıdı ‘El’in tuttuğu yüreği
Yüreğim yürekleri aradı nehirlerde, dağlarda
Gözyaşı ile ıslanmış o yol levhalarında
Ben kalabalıklar, o tekrarlar, o kalıplar içinde
‘Birbaşına’ duran, ‘birbaşına’ yol alan yürekleri sevdim

Yalnızlık Allah’a mahsus, daima bildim
Hiç de yalnız kalmadım; sevenlerim oldu, evet
Hür bir yürekle sevmek ve sevilmek
Ne büyük nimet…
Yazılmışsa yazımıza yolda bir başına, ‘bir’le yürümek
Ben ‘birbaşınalık’ isterim ilelebet
Hâlâ hasretle can bulan ‘El’e hasret gözlerim
Ve El istedi; asırlarca kalemi tuttu ellerim
Terleyen yazımın her satırında şunu yazdım usulca
Ben hep ‘birbaşınalık’ı sevdim
Hele ki ‘Kudret Eli Yüreği Tutunca’…
Ben, ben dediğime bakma sen
‘Ben’ demek, insanlıkta pişen sen
…
“Ben, hep ‘birbaşınalık’ı sevdim…”

Rânâ İSLÂM DEĞİRMENCİ

## Sündüs Arslan

# Şebingülü

Ateş ile raksında gözlerine çek tülü
Üfle güzelliğinden ruhuma şebingülü

Siyah zülüflerinden bir tel düşsün yüzüne
Sen ki en güzel güldün gül düşürdün özüne
Sana aşkı anlatmak aşkı aşka söylemek
Sana dudu dillerden aşkı başka söylemek
Uzak diyarlarımın hasreti sende saklı
Şebingülüm kokunda sevdalarım yasaklı

Dağların kızıl bakan yüreğin kızıl zûl'ü
Duman duman tüterim seninle şebingülü

Can Gareysar türküsü söylenir dilden dile
Bekle beni ey gülüm ben de gelirim dile
Dallarına sevdanın çaputunu bağladım
Şebingülü seninle hemhal olup ağladım
Umudu gömdüm şimdi toprağının koynuna
Bu aşkta günah varsa o da senin boynuna

Hangi rengin mest eder feryat eden bülbülü
Dindir yükselen ah'ı dindir ey şebingülü!..

Güzelliğin dolanır dillere destan olur
Gülzarı şerha şerha satan bedesten olur
Şiir düşen yüreğe dokunur mest edersin
Kendinden geçen gönlü alır sermest edersin
Aşka müptela olan bülbülü şadan eder,
Sonra mahkûm edersin ömrünü zindan eder

Ateşinde yandıkça savruluverir külü
Feryadıma kulak ver, duy beni şebingülü

Âşıkların gözleri goncasında ar olur
Kendine ağyar olan, maşukuna yâr olur
Güze dönünce mevsim dağlara hüzün düşer
Yandıkça kızıl renkte kora dönüşür, pişer
Oy dağların nazlısı kırlar sensiz sararır
Yaprağına çiy düşse tüm mevsimler kararır
Bağban bayram eylese, kurban etse bir gülü
Yüzün tek bir gül açmaz gülşende şebingülü

## Şerife Sönmez

# Hasretlik İşi

Nedir duyduğum bu kuvvetli his yar?
Eyleme beni koca derdinle kâh'r.
Oluverdi bu divane gönül har.
Hasretlik benim yanıma kalır kâr!

Değmese bile meşkle gözler göze ,
Bilin ki her vakit gönül gönülle.
Hülyalarda söyler hayali dille.
Gerek ola mı hiç gama , kedere?

Özlem kolay gelir hissetmeyene.
Hasret ağır yüktür bunu bilene.
Allah kolaylık ihsan ede,
Hakiki özlemle imtihan edilene.
Vesselam!

**Minirə Dadaşqızı**

## Türkün Uca Bayrağı Döyüşlərdə Enməyib!

Çox söylədik, tökmədin öz ətəyindən daşı,
Ey yağı , sən istədin bil ki, qanlı savaşı!
Oyandı artıq Türkün,Boz qurdun qan yaddaşı,
Önündə sərt fırtına ,sel duruş  gətirməyib,
Türkün uca bayrağı, döyüşlərdə enməyib!

Əsrlərdir bəslədik sənin kimi ilanı,
Sən yaxşı tanımadın ,sənə dayaq duranı,
Dön yaxşı bax tarixə,xatırla Atillanı,
O atəş damardadır,bil ki,hələ sönməyib ,
Türkün uca bayrağı ,döyüşlərdə enməyib!

Hələ gec deyil ,götür şikəstini,sağını,
Bu müqəddəs yurdumdan çək murdar ayağını,
Ali Baş Komandana qaldır ağ bayrağını,
Qılıncının altından keçəni öldürməyib,
Türkün uca bayrağı döyüşlərdə enməyib,
Türk oğlu türk heç zaman döyüşdə yenilməyib!

Mətanət Hüseynxanqızı

# Payız Yarpağı

Yenə ayaqlar altda payız yarpağı,
Üzülüb budaqdan sərilir yerə.
Xəzəllər səpilib örtüt torpağı,
Var olan yox olur, göz görə-görə.

Təbiət sovurub baxça-barını,
Yarpaqsız ağaclar yetimə bənzər.
Elə bil itirib könül yarını,
Yarpaqlar torpağın bağrında gəzər.

Təbiət sirlidir ilmələr düyün,
Niyə o gözəllir saralıb solur?
Payızda üzü də tutulur göyün,
Küləklər budağın yarpağın yolur.

Utanar ağaclar çılpaqlığından
Gəlin duvağı tək qarı gözləyər.
Keçib getsən əgər xəzan bağından,
Əzilən yarpaqlar vida söyləyər.

## Şahnaz Şahin

# Sənin Üçün

Təkəm yenə bu axşam
Sən də hardasa təksən.
Musiqi dinləyirəm,
Musiqi dinləyirsən.

Bəlkə də ayrı-ayrı
Şopeni dinləyierik.
Biz zamandan qopmuşuq
Zamanı neyləyirik.

Nə məni tanıyırsan
Nə tanıyıram səni.
Bəlkə məndən böyüksən
Bəlkə kiçik nə bilim.

Bəlkə doğulmamısan
Heç
Tanrı yanındasan
Bəlkə yad bir adamın
Soyuq qucağındasan

Hər sabah ümid doğur
Axşam ölür içimdə
Hər gün kədər şumlayıb
Ağ gül əkir saçımda.

Bu gün də sənsiz keçdi
Yenə görüşmədik biz
Ömrümüz bir teatr
Tamaşa gedir səssiz.

## Zemfira Məhərrəmli

# On İki Yaşın Sevinci (Hekayə)

– Ata, nə olar, az iç bu zəhrimarı! Ayaq altında diyirlənən boş araq şüşələrinə nifrətlə baxan yeniyetmə oğlunun bu fəryadına heç əhəmiyyət vermədi, sanki bu sözləri ona yox, daşa-divara deyirdilər. Şişkin gözlərini güclə açıb oğluna və evin bir küncündə çarpayıda yatan xəstə arvadına tərəf boylandı. Sərxoş ata hər şeyi qatı duman içində görürdü. Bu ailənin mizan-tərəzisi çoxdan pozulmuşdu. Evə kefli gələn kişi hər gecə yaratdığı qalmaqal, dava-dalaşla kiçik yaşlı oğlunu, yüksək qan təzyiqindən əziyyət çəkən arvadını, hətta qonşuları da boğaza yığmışdı. Heç bir nəsihəti, yalvarışı vecinə almırdı.

Oğlunun “ata, sabah mənim ad günümdür, istərdim ki, bizim də süfrəmizdə gözəl yeməklər olsun, sinif yoldaşlarımla bu günü qeyd edim” deməsi də heç nəyi dəyişməmişdi. Bu sözləri söyləyib evdən həmişəki kimi yarıac, yarıtox çıxan oğlan məhəllədə yaşıdları ilə qarşılaşsa da, onlara bənd olmayıb yoluna davam etdi. Hara gedəcəyini heç özü də bilmirdi.

Başında qarışıq fikirlər dolaşırdı: “Niyə atası qeyri-normal həyat tərzi keçirir. Alkoqol düşkünü olduğu üçün onu işdən çıxarıblar. Əcaib hərəkətləri, kobud davranışı ilə anamı da xəstə edib. Belə həyat, görəsən, nə vaxt bitəcək?”

Əsən soyuq külək sanki iliyinə işləyirdi. Gödəkçəsinin yaxalığını qaldırdı, əllərini cibinə qoydu. Yenə də üşüyürdü. Parkın girəcəyində payız küləyinin sovurduğu xəzəl qalaqları qəribə bir gözəllik yaratmışdı. Ayaqlarını qızılı yarpaq topalarına çırparaq yeriyirdi. Gümüş rəngli, parıltılı bir əşya ayağına toxundu. Xəzəllərə tərəf əyilib diqqətlə baxdı. Təptəzə Ayfon telefonu idi. Telefonu yerdən götürdü. Hətta sevindi də. Ani olaraq düşündü ki, “bu bahalı telefonu satsam, xeyli pulum olar, evimizə çoxlu ərzaq, anama dava-dərman və təzə paltar alaram. Axı, sabah həm də ad günümdür.” Elə bunları götür-qoy edirdi ki, əlindəki telefon zəng çaldı. Bu qəfil zəngdən yamanca diksindi. Telefonun ekranında bu sözlər yazılmışdı: “Anamın zəngi.” Telefonu itirən şəxsin anasının zəngləri isə bir an ara vermirdi. Övladından nigaran qalan ana cavab almaq üçün israrla zəng edirdi.

“Axı, telefonu aça bilmərəm, cavab versəm, telefonu mütləq qaytarmalı olacağam. Bu, sanki oğurluq malı gizlədən, həyəcandan əlləri titrəyən oğlanın düşüncələri idi. Birdən öz anasını xatırlayıb qeyri-iradi telefonu açdı və cavab verdi.

– Kimsiniz, qızımın telefonu niyə sizdədir? Neçə saatdır ki, qızımla danışa bilmirəm. Onun başından bir tük əskik olsa... – Ana qırıq-qırıq danışır, qəhər onu boğurdu.

– Qızınız barəsində heç nə bilmirəm. On dəqiqə öncə bu telefonu xəzəllərin arasından tapmışam.

– Bəs mənim qızım hanı? Siz özünüz indi hardasınız? Parkın sağındakı kiçik bağda? Nə olar, mənə qızımdan bir xəbər deyin... Deməli, o, haradan keçibsə, telefonunu orada itirib. Yəqin yaxın məsafədədir. Telefonu söndürməyin lütfən... İndi maşına minib gəlirəm.

Oğlancığaz ananın təlaş dolu səsini dinləyə-dinləyə sövq-təbii qızın axtarışına çıxmışdı. Qaş qaralır, parkdan əl-ayaq çəkilirdi. Kiçik bağda da sakitlik idi. Yamyaşıl, sıx çətirli ağacların arasındakı skamyada tənha bir qızın oturduğunu görüncə, ona yaxınlaşdı. Gənc qızın bənizi qaçmışdı, solğun çöhrəsindən şiddətə məruz qaldığı duyulurdu. Ağ köynəyinin qolları kəsik-kəsik olmuş, pərişan saçları kürəyinə dağılmışdı.

Qıza yaxınlaşıb:

– Siz telefonunuzu itirmisiz? – deyə soruşdu.

Qız qəfil sualdan diksindi:

– Bunu hardan bildiniz?

– Sizin Ayfonu tapmışam. Alın, ananızla danışın.

Gözlənilməz təklifdən şaşıran qız ağlamsınaraq anasına bunları nəql edirdi:

– İki nəfər üstümə şığıdı. Ətrafda kimsə gözə dəymirdi. Başıma-gözümə vurmağa başladılar. Məndən pulumu və telefonumu istəyirdilər. Lap vəhşiləşmişdilər. Yekəpər oğlan çantamı alıb qaçanda o birisi də onun dalınca yüyürdü. Mən cibimdə gizlədiyim telefonumu gücüm çatınca uzağa – xəzəl tökülmüş

dar cığıra tulladım. Düşündüm ki, sonra özüm tapıb sənə zəng edərəm, dalımca gələrsən. Nə illah etdimsə, gözümə dəymədi, heç cürə tapa bilmədim. Üzgün görkəmdə və pulsuz evə necə qayıdaydım? Sonrası isə artıq sənə bəllidi... Kaş belə bir qardaşım olaydı, ana...

Ertəsi gün səhər sərxoş kişinin qapısı döyüldü. Başı bədəni üstündə güclə dayanan, gecəki kefliliyindən bir az ayılan kişi gözəl geyimli, şux qamətli bir xanımı kandarda görəndə təəccübünü gizlədə bilmədi. Qadın gətirdiyi hədiyyələri, pal-paltarı, ərzaq bağlamalarını və zərfin içinə qoyduğu pulu elə dəhlizdəki kiçik masanın üstünə düzüb:

– Çox tərbiyəli, ağıllı oğlunuz var, – dedi. Onun yerinə başqası olsaydı, tapdığı bahalı telefonu heç qaytarmaq barədə düşünməzdi. Üstəlik o, hələ oğru-cibgirlərin əlindən qurtulmuş qızımı bu telefonla tapmaqda mənə kömək eləyib. Daha hansını deyim... Kaş mənim də belə bir fərasətli, zirək oğlum olaydı... Hədiyyələr onundur. Bu azyaşlı, saf ürəkli oğlanın yaxşılığını heç vaxt unutmarıq.

Oğlunun ünvanına birnəfəsə deyilən xoş sözləri, alqışı eşidən ata yerində donub qalmışdı. Dumanlı gözləri ilə bu çağırılmayan qonağa baxır, yaraşıqlı, qədd-qamətli xanımın söylədiklərini dinləyirdi. Qonağın hüzur dolu səsi o qədər məlahətli idi ki! Evin bir küncündə, çarpayıda yatan xəstə ana yorğan-döşəkdən silkinib ayağa qalxmış, dəhlizə çıxmışdı. Maraqlı mənzərə idi.

Hekayəmizin azyaşlı qəhrəmanı isə gözə dəymirdi. O, dəhlizə açılan qapının arxasında dayanıb ötən günün olayları barədə düşünürdü. Qızına görə dünən sıxıntı keçirən ana ilə də görüşməliydi. O, irəli yeriyib qadınla köhnə tanışlar kimi salamlaşdı və onu içəri dəvət etdi:

– Təsadüfə baxın ki, bu gün mənim ad günümdü, on iki yaşım tamam olur. Gəlin, birlikdə qeyd edək!

## Arzu Nehrəmli

### Gəlir

Günün naz-nemətι, bəhəri dilxor,
Sevinci pərişan, kədəri dilxor,
Sübhü çaşbaş qalıb, səhəri dilxor,
Yorğun sabahların yuxusu gəlir.

Səssizlik hay çəkir, haray görünür,
Son ümid qətlinə qərar görünür,
Nə ulduz sayrışır, nə ay görünür,
Üstümə gecənin ağrısı gəlir.

Könlüm, bulaşımmı günah- suçamı,
Arzuda buna tab, buna güc hanı?
Ümidim, dur bağla qapı-bacanı,
Havadan ayrılıq qoxusu gəlir.

## Lütviyyə Əsgərzadə

# Məhmət Ömər Kazançı Şeirində Savaşın Poetik İfadəsi

Azərbaycan ədəbiyyatşünaslıq elminin patriarxı Yaşar Qarayev yazır: "Bizim üçün İraq Füzulidən, Füzuli Kərbəladan başladığı kimi, Kərkük də, Qəzənfər Paşayevdən başlayır." Həqiqətən də, uzun illər həsrət qaldığımız, "bir zamanlar tək, 9 vahid torpaq halında olan indi iki ayrı ada halına gəlmiş Kərkük və Azərbaycanı - "bu iki adanı bir-birinə bağlayan körpü" rolunu Azərbaycan kərkükşünaslığının banisi" (T.Hacıyev) professor Qəzənfər Paşayev üstlənmişdir. Bu gün bir müddət ədəbi-mədəni bağlarımızın qırıldığı Türkmən eli-Kərküklə əlaqələrimizin genişlənməsi, elmi və ədəbi əlaqələrin qurulması ürəkaçan və sevindiricidir. Son zaman böyük bir heyətlə türkmən qardaş və bacılarımızın Azərbaycanda olması bunun bariz nümunəsidir. Birlikdə iştirak etdiyimiz elmi simpozyum və tədbirlərdə bir-birimizlə görüşüb söhbət edir, fikir bölüşürük. Bu söhbətlərdə daha çox Kərkükdən danışırıq. Bu gün Kərkük deyincə yadıma Bağdad universitetinin dosenti, dostlarım Nadia Jassen, folklorşünas alim Nejdet Yaşar Bayatlı və müasir Türkman ədəbiyyatının nümayəndələrindən Əbdüllətif Bəndəroğlu, Məhəmməd Mehdi Bayat, Sabah Abdulla, Səlahəddin Naci, Şəmsəddin Türkman, Sabir Dəmirçi, Nəcib Şeyx Vahab, Orxan Həsən, Burhan Yaralı, Cəlil Qazançıoğlu, Husam Həsrət, Əsəd Ərbil, Kamal Mustafa Dakuklu, Faruk Faiq Köprülü, Rza Çolaqoğlu və şeirləri üzərində düşüncələrimi paylaşmaq istədiyim professor Məhmət Ömər Kazancı gəlir.

Bəhs edəcəyimiz Məhmət Ömər Kazancı Türk dünyasında tanınan elm adamı olmaqla yanaşı, həm də sevilən bir şairdir. O, Türkmən Qardaşlıq Mərkəzinin (TQM) idarə heyətinin sədri, İraq türklərinin ən geniş yayılmış jurnalı olan "Kardeşlik" jurnalının baş redaktoru vəzifələrində çalışıb (2005 - 2013). Sonralar bu ocağın fəxri prezidenti seçilib. İraq Universitetləri Professorları Dərnəyi və Türkmən Ədəbiyyatı, İraq Ədəbiyyatı və Avrasiya Ədəbi Dərnəklərinin idarə heyətinin üzvüdür. Bütün bunlarla yanaşı, elmi təcrübəsində onun dünyanın tanınmış jurnallarında ingilis, ərəb və türk dillərində 45-dən çox elmi araşdırması dərc etdilmiş, 22 ali təhsil (magistr və doktorantura) tələbəsinə elmi rəhbərlik etmişdir. 4 patenti var. Professor M.Kazancının ərəb dilində yazdığı iki elmi əsəri: "Mikrobiologiyanın Sənayeyə Tətbiqi" və "Molekulyar Biologiya" adlı iki elmi əsəri Bağdad Universiteti tərəfindən dərslik kimi nəşr edilmişdir. Onun İraqda, Türkiyədə hekayə və araşdırma yazıları yayınlanmış, "Sənə doğru" (Bağdat, 1979). "Şarkıca konuşmak" (Bağdat, 1984), "Cam ardından bir öpüş" (Bağdat,1987), "İnci üstünə inci" (Bağdat,1990). "Şafak" (Nusrət Mərdan və İsmət Özcanla birgə) (Kerkük, 1990), "Türkmən öykücülüyü" (Bağdat,1994), "Bir ömür yetmiyor" (Kerkük, 2003), "Ölümə zaman erkən" (İsmət Özcanın yaşamı və şeirləri) (Erbil, 2005), "Nəsrəddin hoca Kərkükdə" (Bağdat,2007),"Türkmən öykücülüğü" (araştırma – Bağdat, 2007), "Atəş çəmbəri" (Bakı, 2008), "Qığılcım" (İstanbul,2008), "Türkmən ədəbiyyatında ilk hekayə: Mübarə eşqi" (İstanbul, 2009) "Kerkükdə gül zamanı" Ərəb dilində hekayə antologiyası. (Nusrət Mərdan ilə birgə). (Bağdat, 2009), "Hüzün qağayıları" (Nusrət Mərdan ilə məktupbaşmalar), (Kərkük, 2010), "Gündem işğal" (Kerkük,2010), "Yeni İrak qəzeti. Tədqiqat. (Kərkük, 2011), "Qadın qəlbi: yüz il öncə yazılan bir roman: Hayrəttin Farukî: İncələmə və sözlük" (Türkiyə, 2013) adlı şeir, hekayə və araşdırma kitabları nəşr olunmuşdur.

Məhmət Ömər Kazancı Kərkükdə doğulub (1952). Kərkük onun ən böyük sevdası, eyni zamanda yarasıdır. O Kərkük ki İraqın 4 böyük şəhərindən biridir və başından "qəzavü-qədər" heç əskik olmur. O Kərkük ki, hələ də problemləri həll olunmayıb. Məhmət Ömər Kazancı poeziyasında Kərkük bütün gözəllikləri, sosial dərdləri, siyasi problemləri ilə, bütövlükdə Şərq bütün problemləri ilə inikas edir.

Bildiyimiz kimi, XX əsrin sonunda Orta Şərqdə başlanan savaşlar XXI əsrdə hələ də davam edir. İllərdir döyüş meydanına çevrilən Yaxın Şərqdə məzhəb savaşı XXI əsrdə də səngimək bilmir. Əksinə XXI əsrin əvvəllərində coğrafi sərhədləri genişləndirmək məqsədi ilə qarşıdurmalar günü-gündən daha da qızışdırıldı. Yaxın Şərqdə sonsuz görünən müharibələrə səbəb ola biləcək müqavimətin ilk əlamətləri özünü göstərməyə başladı. Baş verənlərin memarı olan Qərb, müsəlman dünyasının ideoloji müstəvidə çalxalanmasının hansı istiqamətdə davam edəcəyini seyr etdi. Bu Orta Şərqin xəritəsinin yenidən dəyişdirilməsi üçün zəmin hazırlıqları idi. 28 sentyabr 2013-cü ildə "New York Times" (ABŞ) qəzetindəki xəbərlərdə yer alan xəritədə "Yaxın Şərqin xəritəsi yavaş-yavaş yenidən çəkilə bilər", - qeydi xəbərdarlıq xarakteri daşıyırdı. Xəritədə Orta Şərqin alacağı forma, Robin Raytın imzaladığı təhlildə Orta Şərqdə 5 dövlətin necə parçalanaraq 14-ə qədər artacağını göstərilir, Səudiyyə Ərəbistanı, Yəmən, Suriya, İraq və Liviya kimi ölkələr bir neçə yerə bölünür.

“New York Times”ın yeni Yaxın Şərq proqnozuna görə, 5 ölkədən 14 ölkə yaradılacaq. İraqın Şərqində kürd bölgəsi, ortada sünni dövləti, paytaxt Bağdadın cənubunda da bir şiə dövləti qurulacaq. İŞİD terror təşkilatının İraq və Suriyadakı stratejik önəm daşıyan əraziləri ələ keçirməsi və s. Yaxın Şərq ssenarilərini ehtiva edən xəritədə, Robin Rayt Şərqlə bağlı təhlilində Liviya, Suriya, İraq, Səudiyyə Ərəbistanı və Yəməndəki etnik və məzhəb gərginliyinə toxunur, bölgəni iqtisadi və siyasi böhranların gözlədiyini də bəyan etməyi unutmur. Bu xəritənin yaradılması üçün Orta Şərqdə illərdir nələr edildiyi məlumdur. İraq türkmanlarının yaşadığı Kərkük də bu planlamadan öz nəsibini aldı. Bir neçə il öncə Böyük Britaniyanın “Time” qəzeti yazırdı ki, “Kərkük partlamağa hazır bir bombadır.” Kərkükün polis idarəsində vəzifə sahibi olan türkmən - Najim Ömər, Kərkükü “qaz sızan bir təbii qaz borusu”na bənzətmişdir. Amma bu bombanın fitilini qoyanlar, az öncə bəhs etdiyimiz kimi süni şəkildə yaradılan məhzəb qarşıdırması yaradanlar idi. Bütün bunlar, Kərkük yaxın keçmişi və bu günü ilə Məhmət Ömər Kazancının poeziyasında geniş şəkildə öz əksini tapır. İ

Illərdir İraqda yaşanan tarixi hadisələrə şahidlik edən şair, yaşanan tarixi nəzmə çəkir, zaman-zaman tarixə ekskursiya edir. Bu baxımdan, Kərkükün taleyi kimi, Kərkük qatarını ardından baxan şairin düşüncələri də həm hüznlüdür, həm düşündürücü.

“Bir tren vardı
Büklüm büklüm
Salıverirdi dumanını
Evimizin üstüne
Püf.. püf.. püf diye okşardı
vagonlarını
Ardınca çekerken
Bir istasyondan
diğerine…

Bir tren vardı
Kerkük’ün göğsüne
Başını dayardı
Yorulduğu zaman” (Kərkük qatarının ardından).

Şairin yaddaşında həzin xatirələrlə həkk olunan qatar sıradan bir qatar deyildi. “Yorulduğu zaman başını Kərkükün köksünə dayayan” Kərkük qatarı idi. Bu qatar, “Kərkükə girərkən babasız çocuklara əl sallar”, “qıtlıq günlərində un daşıyardı.” Savaş günlərində digər qatarlar kimi, Kərkük qatarının da missiyası dəyişir. Cəbhəyə əsgər daşıyır, Kərkük qatarı:

“Bir tren vardı
Kerkük’e girerken
Babasız çocuklara
el sallardı
Un taşırdı
Kıtlık günlerinde
oradan oraya
Savaş günlerinde
Asker taşırdı
cepheye” (Kərkük treninin ardından).

Vaxtı ilə xoşbəxt anlara şahidlik etmiş, hər işə yaramış bu qatar “Muskonun Fatmasını Kərkük qalasından Ərbil qalasına gəlin aparmışdı.”

“Bir tren vardı
Muşko’nun Fatma’sını
Gelin götürdü
Kankalasında
Erbil’in kalesine
Kerkük’ün kalesinden” (Kərkük treninin ardından).

Artıq qatar gəlin aparmır, çocuklara əl sallamır, cəbhəyə silah, savaşa əsgər daşıyır. Çünki il 2010 deyil, 2014-cü ildir. “Havadis” var: “1900-cu illər çox geridə qaldı. “Qara gözlüklü bir amcanın əlində gördüyü ”Havadis” qəzeti şairi haldan-hala salır. M.Ö.Kazançının “Sen kimsin, amca” xitabıyla başlayan şeirində bir çox həqiqətlərə işıq tutulur. Şair, “Ahmet Medeni hocanın” çıxardığı “Havadis” qəzetinin çıxarıldığı sakit günləri xatırlayır, “gözlüklü amcanın” əlinə haradan keçdiyini və qəzetin hələ də çıxdığını sual edir:

“Bu gazete Havadis gazetesi
Eline nasıl geçti nereden
Bu gazete bizimdir üstünde mührümüz var
Ahmet Medeni hocamız çıkarırdı
Makine gibi bir adamdı yorulmazdı çalışmaktan
Hâla çıkıyor mu, kimdir çıkaran
Nereden bu haberler kimden.”

Yaşananlar kimi, “Havadis”lər də (xəbərlər) çox acıdır, ağrılıdır, ölüm qoxuludur:

“-Yine can kaybı var
-Yine patlamalar
-Yine döndü kan gölüne
Yetim Tuz, bîkes Kerkük
-Yine vuruldu Telafer
Yüreğinden yaralı.”

Şair “Havadis” şeirində Türkmənelinin, bütövlükdə İraqın düşdüyü ağır durumu, savaş günlərini, bu günlər-

də mühabirlərin – naşirlərin qalmadığına toxunur, daha bu ölkədə “muhabir”lərin (naşir) yerini “mühbirlərin” (xəbərçi) aldığını vurğulayır:

“Muhabir kalmadı bu ülkede muhbirler var
Herkes birilerini ihbar ediyor birilerine
Herkes yakınıyor birbirini birbirinden
Peşinde değil “havadisin” kimse amca” (Havadis).

Artıq nə bu şəhər o şəhərdir, nə də xəbərlər o xəbərlər. Geriyə qalan ancaq “şəhərin adıdır”, “bir də Ahmet Medeniye benzeyen biri” – Tərzibaşı. Savaşa düşmən olan “Bütün güvercinler göç etmiş çoktan” buralardan. “İstərsən əlindəki “Havadis”lə səni götürəlim “Ahmet Medeniye benzeye hocamız Terzibaşıya.”

“Sen kimsin gelmişsindir nereden
Bu gazete elinde ne gezer
Taşıdığın mesaj ne, kimden
2014’teyiz.” (Havadis).

Savaşın faciələrinə biganə gala bilməyən şair, müharibə ocaqlarını yaradanları, Orta Şərqə ölüm, ağrı, səfalət gətirənləri “Azrail Kardeşlerimiz “ adlandırır (zatən ilk cinayəti də qardaş qardaşa etmiş, Qabil vurub Habili öldürmüş). Şair poeziyasında əzrail qardaşlarıyla fikir bölüşür. “Din adına Əcnəbi silahlarıyla adam öldürmələrinə”, “savrulan bir millətin başından hasablarının yanlış olduğuna”, “Bu suçları işlemeyin bir maskara” olduğunu xatırladır:

“Azrail kardeşlerimiz
Bu silahları ecnebiler üretmiyor mu?
Haram değil mi ellerinize almanız
Abdestinizi bozmuyor mu?
Öldürürken insanları
Ne zaman anlarsınız
Azrail kardeşlerimiz
Savrulun bu milletin başından
Hesaplarınız yanlış” (Azrail kardeşlerimiz).

Şair, “Vazgeçtim, şiirle çözülmüyor milletin derdi“, - desə də, yaşananları yazmadan dura bilmir. Gördüyü mənzərənin dəhşətini, Ümuş şəhərinin düşdüyü açınacaqlı, dözülməz vəziyyəti anladır. Eyni zamanda, Qərbin Şərq siyasətini, İraqdakı siyasi durumu, insanların çəkdiyi zülmü, savaşın dərdlərini, bu torpaqlarda gedən siyasi oyunları dilə gətirir:

“Öyle olaylar yaşanıyor dışarıda ki
Her dakika başına, her kese dair
Kimsenin hatırı kalmasın diye
Herkes payını alıyor
Rezil rüsvay
Pembe düşlere yer kalmadı.
Ümüş Rüyaları Ankalar dolduruyor
Çalan çalanın çırpan çırpanın
Bildikleri gibi savuruyor
Bildikleri gibi savıyorlar
Petrolun donu düştü
Patronunki düşmüyor
Nasıl ki düşer Ümüş
Uçkurunu Amerika bağlamış
Milletin canı çıksın” (Ümüş).

Savaşın gətirdiyi ən dözülməzi, çocuqların düşdüyü səfaləti, aclığı, ölümü, anaların fəryadını, İŞİD -in etdiyivəhşilikləri, “Pər - pərişan” şəhərlərin halını misralarında təsirli bir şəkildə ifadə edir:

“Annelerin çığlıkları melekleri indirdi gökyüzünden
Çocuklar hâlâ aç melekler hâlâ aciz
Bir yandan IŞİD kırpıyor
Hain eller kırpıyor öte yandan
Tüm ağaçlar budandı
Sevdiğin şehir Ümüş
Per perişan.” (Ümüş).

Şair, Ümüşəmi (İraqda şəhər) üzülsün, bir daha Mosulu görə bilmədiyinəmi üzülsün, yoxsa Kərkükün həll oluna bilməyən, “kör düyüm”ə dönmüş taleyinəmi? Kərkükün taleyini “kör düyüm”ə bənzədən şair, oyunun ucunun şeytanın əlində olduğunu, bu şeytan yenilməsə, son düdüyün çalınmayacağının” altını cızır:

“Gözler Musul’u artık
Göremez hale geldi
Kale nerde top kimde,
O canım Kerkük kimde,
Belli ki kördüğümde
Oysa Bağdat, Bağdat güya
Hâlâ elde duruyor.
Her kes uzansam diyor
Tutacağım ucunu bu oyunun
Her kes de biliyor ki
Ucu şeytan elinde
Şeytanı yenemezsek
Çalmayacak son düdük (Son düdük).

Düşüncələrini şeirlərinə pıçıldayan, bəzən “dövran”ı, bəzən “divanı” söyən şair, bəzən də özü-özünü ittiham edir, “Ulan Kazançı, sen yenimisin burda, bu ülkenin göbeğinin böyle kesildiğini bilmiyormusun?”

“Ulan sen ne zaman anlarsın ki
Bu ülkenin göbeği böyle kesilmiş
Böyle dökülmüş suyu
Ağzı burnu kan içinde kalû belâ’dan
Ulan sen Kazancı yeni misin burada
İlk mi çekiyorsun bu kara dumanları içine
İlk mi soluyorsun bu kirli havaları
İlk mi duyuyorsun
Yürekleri parçalayan bu çığlıkları
İlk mi görüyorsun bu din soytarıları
Nasıl kıyımlar işliyor din adına
İlk mi, ilk mi… bütün bunlar
Eskiden de vardı...” (Ulan Kazançı sen yenimisin burda).

Şairin “əskidən də vardı”, - deyə vurğuladığı hadisələr, savaş, parçalanma, məhzəb savaşları Birinci Dünya Müharibəsində də yaşanmış, Orta Şərq parçalanmış, 400 yüz il Osmanlının idarəetməsində olan Kərkükün, Mosulun taleyi ingilis casusları tərəfindən həll olunmuşdur. Bir az düşünməyi, yaşananları xatırlamağı tövsiyə edir şair. Xatırladıqca da “bu salgınları” durdura bilmədiyinin səbəbini anlayacağı”nı vurğulayır:

“Bulaşmadık cüzdan kalmadı
Ötede kırk harami beride kırk harami
Gücün nasıl yeter anlatmaya
Bu hayalî filmleri çocuklara
Kendini kahramanlarla bir tutma
Kim olursun sen, unutma
Ulan sen Kazancı yeni misin burada
Hiç mi hiç değmedi tırnağına
Namertlerin taşları
Hiç mi hiç kanamadı burnun
Sevgilinin uğruna
Nerede taviz vermedin ki ele ayağa” (Ulan Kazançı sen yenimisin burda).

Şair, şeirlərində yaşananların, savaşın, ölümün, aclığın, bir sözlə müharibənin gətirdiyi dəhşətlərin poetik rəsmini çəksə də, şeir onun üçün bir başqa mahiyyət daşıyır. Kazançı, üçün şeir “karanlık odalara aydınlık gətirən günəş”dir, “yüzlerden kir gideren su”dur, “kini kökten söken sevgi”dir, “içimizə çəktiyimiz hava”dır, “umut”dur:

“Güneş gibidir şiir
Aydınlık getirir
Karanlık odalara
Su gibidir şiir
Kir giderir yüzlerden
Sevgi gibidir şiir
Kökten söker kinleri.”
Şeir içimize çektiğimiz hava gibidir,
Oksijen taşır yüreklere, Umut taşır...” (Şeir kimi şeir).

Onun yazımızda bəhs etdiyimiz şeirləri yazılanda şairin içinə çəkdiyi hava, məcazi ifadə etsək, dərd, kədər, ağrı, iztirab, ölüm, müharibə dəhşətləridir. Şeirlərində anlatdıqları Yaxın Şərqdə yaşananların poetik ifadəsidir. Türkmən elinin - Kərkükün, Mosulun “kör düğüm”ə bənzətdiyi taleyinin, inikasıdır. Şairin fikrincə, dərdlərini pıçıldadığı şeir, “Eli gibi dostu”, “gözü gibi yoldaşı”, “kalbi kimi kardeşidir.” “Yıldız gibidir şiir, ele, avuca sığmayan, renkli düşler getiri uykulara, karanlık gecelerde.” “Gece bahçelerinden yıldızları toplayıb öksüz çocuklara karşılıksız sunulan” şeir, “Yalan dünyamızın ən doğrusudur.“

“Yıldızları derler toplar
Gece bahçelerinden
Öksüz çocuklara sunar
Bedava karşılıksız.
Elimiz gibi dostumuzdur şiir
Gözümüz gibi yoldaşımız
Kalbimiz gibi kardeşimiz.
Yıldız gibidir şiir
Ele avuca sığmayan
Renkli düşler getirir
Uykulara
Karanlık gecelerde
Düş şiirle düştür
Gerçek şiirle gerçek
Su şiirle sudur
Ekmek şiirle ekmek
Ve yalan dünyamızın
En doğrusudur şiir” (Şiir gibi şiir).

Müəllifə, “Yalan dünyamızın ən doğrusu” saydığı şeir yaradıcılığında uğurlar arzulayır, qələminin yalnız sülhdən, sevgidən, Kərkükün, Mosulun, Telafərin xoş, firavan günlərdən yazmaq, bütövlükdə Yaxın və Orta Şərqə, savaşsız, açıq, mavi səma diləyi ilə yazımızı bitiririk.